# “GS1” təşkilatının Baş Assambleyası

GS1 Beynəlxalq Təşkilatı 2008-ci ilin mayın 19-dan 22-dək Xorvatiya Respublikasının Dubrov - nik şəhərində Baş Assambleyasını keçirdi. Assambleyada 89 GS1 Milli Təşkilatından 231 nəfər nümayəndə iştirak edirdi. Onların arasında GS1 Azərbaycan Cəmiyyətinin də nümayəndələri var idi. GS1 Baş Assambleyasında iş proqramları qəbul edildi və onların maliyyələşdirilməsi məsələsi müzakirə edildi.
İdarə Heyətinə yeni üzvlər, sədr vəzifəsinə isə „Procter & Gamble” amerika şirkətinin prezidenti Robert Makdonald seçildi.

Assambleya “GS1 standartları hərəkətdə” devizi altında keçdi. Əsas müzakirə mövzuları :
- İdentifikasiya Sistemləri və Ştrixkodlar;
- Məlumatların Sinxronlaşdırılması üzrə Qlobal şəbəkə (GDSN);
- Məhsulun RFİD (radiotezlikli identifikasiya) texnologiyasına əsaslanan EPC elektron kodu.

Assambleyada GS1 Databar yeni simvolun təbliğatına xüsusi diqqət yetirilmişdi. Assambleyada Çernoqoriya Respublikası yeni üzv kimi təşkilata qəbul edildi.
Həmçinin Baş Assambleyanın iclasında GS1 Yunanıstan cəmiyyətinin GS1 sistemindən xaric edilməsi barədə qərar qəbul edildi.
Səbəb ondan ibarətdir ki, Yunanıstan GS1 Nizamnamənin şərtlərinə əməl etmir. Müvəqqəti olaraq GS1 Yunanıstanın vəzifələrini GS1-in Baş ofisi həyata keçirəcək.
Ənənəyə uyğun olaraq, üzvlük müddətinə görə bir sıra ölkələrin milli təşkilatlarına diplomlar verilmişdi: Yaponiya (30 il), İspaniya (30 il), Çexiya (25 il), Malaziya (20 il), Türkiyə (20 il).

# GS1 Baş Assambleyasından fotoqalereya



Geniş iclas




Klara Karivan (GS1 Xorvatiya) sincə vurmaqla Baş Assambleyanı açıb



İclas zalında




Yeni GS1 Databar kodların tətbiqi haqqında Baş ofisin mütəxəssisi Skot Greyin çıxışı



Azərbaycan, Misir və Türkiyə nüma - yəndələri



GS1 Assambleya iştirakçıların xatirə şəkili